

***İşğalçı Ermənistanın növbəti təxribata əl atdığı günün səhəri doğma rayonumuz Füzuliyə getdim. Burada sakinlərlə görüşdüm, insanlardakı yüksək əhval-ruhiyyənin, vətəndaşların Ordumuzun qələbə əzmkarlığından qürurlandıqlarının şahidi oldum. Bir sözlə, cəbhədən ilkin xoş xəbərlərin gəlməsi adamlarda bir coşğu, sevinc, fərəh hissi yaratmışdı. Erməni silahlı qüvvələri tərəfindən kəndlərimizin, eləcə də mülki vətəndaşlarımızın hədəfə alınması halları isə heç kimi qorxutmurdu və heç kim yurd-yuvasını tərk etmək barədə düşünmürdü. Bu, hazırda da belədir. Çünki hamı Azərbaycan Ordusunun güc-qüdrətini yaxşı bilir. Əmindir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə, xalqımızın dəstəyi ilə ordumuz işğalda olan əzəli yurd yerlərimizi qəsbkarlardan təmizləyəcək.***

# Ordumuzun zəfər yürüşü xalqımızın uzun sürən həsrətinə son qoyacaq!

Bu gün həm Füzuli rayonu, həm Horadiz şəhəri, həm də kəndlərin erməni silahlı qüvvələri tərəfindən atəşə tutulması halları davam edir. Mülki vətəndaşlarımız arasında yaralananlar var. Amma Azərbaycan Ordusu, bütövlükdə, döyüş şəraitinə tam nəzarət edir. Bu məqamda, Azərbaycan Ordusunun qətiyyətlə irəlilədiyini xüsusilə vurğulamaq lazımdır. Əminəm ki, çox yaxın zamanda yeni qələbə xəbərləri ilə sevinəcəyik.

Yeri gəlmişkən, burada bir məsələyə də diqqət yetirmək istərdim. Belə ki, 1993-cü ildən Füzuli rayonu, demək olar ki, tam şəkildə işğal altında idi. Bir müddət sonra Azərbaycan Silahlı Qüvvələri tərəfindən ərazilərin bir hissəsi erməni faşistlərindən azad edildi. Bir füzulili kimi bildirirəm ki, məhz o zaman rayonun Horadiz şəhəri daxil olmaqla, ərazilərimizin bir hissəsinin işğaldan azad olunması birbaşa ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və Ali Baş Komandanlığı ilə gerçəkləşdi. Sonrakı dövrlərdə də Füzulinin işğaldan azad olunan kəndlərinin yenidən qurulması və infrastrukturunun inkişaf etdirilməsi həm dahi öndərimizin, həm də cənab Prezident İlham Əliyevin xüsusi diqqətində oldu. Nəticə etibarilə biz işğaldan azad edilən ərazilərimizdə infrastrukturun tam olaraq formalaşdırılmasını müşahidə etdik.

Bu gün erməni təxribatı nəticəsində mülki əhali də erməni hücumuna məruz qalıb, çox sayda yaşayış evləri və sosial obyektlər, infrastruktur dağıdılıb. Amma sakinlərin təhlükəsizliyinin qorunması üçün bütün tədbirlər həyata keçirilir.

Erməni silahlı qüvvələrinin mülki vətəndaşları və kəndləri atəşə tutması beynəlxalq konvensiyalara ziddir. Çünki bütün hallarda müharibə zonasında mülki vətəndaşların hədəfə alınması yolverilməzdir. Amma müşahidələr göstərir ki, erməni silahlı qüvvələri biləlrəkdən dinc insanları atəş altında saxlayır.

Ümumiyyətlə, erməni işğalçılarının Azərbaycana məxsus yaşayış məntəqələrini intensiv şəkildə atəşə tutmaları işğalçı dövlətin beynəlxalq hüquq normalarına, habelə, müharibə qaydalarına əməl etmədiyini göstərir. Ermənistan ordusunun mülki əhalini atəş altında saxlaması onun terrorçu və anti-insani mahiyyətini göstərir.

Hazırda Füzulidə mülki vətəndaşlar gecə-gündüz atəşə tutulsalar da, əmlaklarına ciddi ziyan dəysə də, öz evlərindən çıxmayıblar, hər kəs öz işində-gücündədir. Bunu televiziyaların canlı yayımlarından da görmək mümkündür. Xüsusən erməni təxribatı başlayandan sonra Horadiz şəhərində gəzən zaman çox sayda insanları gördüm. Onlar yaxınlaşıb Ali Baş Komandanın əmrinə uyğun olaraq ordumuzun əks-hücum əməliyyatlarında iştirak etmək, Vətən uğrunda döyüşmək istəklərini bildirdilər.

Bu baxımdan, hər hansı bir mülki vətəndaşın atəşə tutulması və əmlaka dəyən ziyan heç bir halda vətənpərvərliyə və əhval-ruhiyyəyə təsir etməyib. Füzuli sakinləri hamılıqla rayondadır. Sözsüz ki, burada təhlükəsizliyin qorunması ilə bağlı tədbirlər də həyata keçirilir və bu, davam etdiriləcək. Xüsusən yaşlı sakinlərimizin və uşaqların təhlükəsizliyinin qorunması çox vacibdir. Bu istiqamətdə də işlər görülür.

Hazırda Füzulidə olan hər bir sakin ordu üçün, qələbə üçün nəsə etməyə çalışır. Baxmayaraq ki, ordumuzun ərzaq, o cümlədən, dərman təminatında hər hansı bir problem yoxdur, amma sakinlər rayonun müvafiq icra strukturlarına orduya ərzaq, siqaret və ya dərman preparatı göndərmək istəklərini bildirirlər. Fikrimcə, bu, ümumi birliyi göstərən əyani bir misaldır.

Yeri gəlmişkən, onu da vurğulayım ki, Azərbaycan iqtisadiyyatı müharibəni qələbəyədək heç bir çətinlik olmadan aparmağa imkan verir. Yəni, Azərbaycanın iqtisadi potensialı kifayət qədər yüksəkdir. Hazırda dövlət rezervlərimiz 43 milyard dollardan çoxdur, eyni zamanda, biz əvvəlki illərdə də Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı işləri genişləndirmişik. Son illər illik büdcədən 3 milyard manatdan artıq vəsait birbaşa müdafiə qabiliyyətinin gücləndirilməsi üçün ayrılıb. Bu da təbii ki, ordumuzun maddi-texniki bazasının möhkəmlənməsinə əlverişli imkan yaradıb.

Pandemiya xarici faktor olaraq ölkəmizin iqtisadiyyatına təsir etdi. Amma nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatına pandemiyanın təsirləri məqbul səviyyədə oldu.

Sonrakı dövrlərdə neftin dünya bazar qiymətinin sabitləşməsi, iqtisadi aktivliyin bərpa edilməsi, iqtisadi açılım yenidən real sektorun canlanmasına gətirib çıxardı. Bir faktı da qeyd etmək lazımdır ki, istər pandemiya dövründə, istərsə də karantin tədbirlərinin tətbiq olunduğu müddətdə Azərbaycan heç bir sosial layihəni ixtisara salmayıb. Deməli, belə bir iqtisadi güc Azərbaycana qələbəyədək ordunu və vətəndaşları dəstəkləməyə imkan verəcək. Qələbədən sonra da işğal olunan torpaqlarımızda şəhər və kəndlərin yenidən bərpa edilməsini və infrastrukturun qurulmasını müşahidə edə biləcəyik.

Artıq Ermənistan iqtisadiyyatı, necə deyərlər, öz ordusunun məğlubiyyətinə reaksiya verir. Ermənistan milli valyutasının məzənnəsində azalmalar var. Həmçinin, işğalçı ölkənin iqtisadiyyatı nəinki pandemiya, hətta ondan əvvəlki dövrlərdə belə, regionun ən zəif iqtisadiyyatı hesab olunur. Ermənistanda rəsmi statistikaya əsasən, işsizlik səviyyəsi 25 faizə yaxındır və bu, beynəlxalq hesabatlarda ən yüksək göstəricidir. Xüsusən gənclər arasında işsizlik səviyyəsi kifayət qədər yüksəkdir. Rəsmi statistikada yoxsulluq səviyyəsi 20 faizdən artıq göstərilir. Beynəlxalq hesabatlarda Ermənistanda hər 3 nəfərdən birinin yoxsul olduğu qeyd olunur.

Əslində, düşmən dövlət iqtisadi baxımdan da müharibədə uduzur. İnşallah, Azərbaycan Ordusu qələbə qazandıqdan sonra Ermənistan iqtisadiyyatının çökmə prosesinin daha sürətlə davam etməsi gözlənilir. Azərbaycan nizamlı ordu, hərbi güc və eləcə də iqtisadi güc baxımından Ermənistanı dəfələrlə üstələyir.

Bu gün gənclərimizin bir araya gəlib orduya könüllü getmək üçün hərbi komissarlıqlara xahiş etmələrini görürük. Amma Ermənistanda bunun əksinə, döyüşdən boyun qaçırmaq prosesi müşahidə olunur. Hazırda erməni hərbiçisi döyüşməmək üçün xidmət yerindən qaçır. Bu baxımdan, Azərbaycan hərtərəfli şəkildə üstünlüyə malikdir və əminəm ki, bizim nizamlı və güclü ordumuz çox qısa zamanda bu üstünlüyü qələbəyə çevirə biləcək.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü***

Xalq qəzeti 2020.- 4 oktyabr.- S.8.